

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 172 (21.073)

*10 sentyabr 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Yasamal rayonundakı 153 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Moldova Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri xanım Natalia Germanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskasın, Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Baard İvar Svendsenin, Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dato Roslan Tan Sri Abdul Rahmanın etimadnamələrini qəbul edib.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 9 sentyabr tarixli Sərəncamı ilə 2014/2015-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş bir qrup tələbəyə Prezident təqaüdü verilmişdir. Həmin tələbələr arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları da vardır:

Həşimli Faiq Həşim oğlu
Qasımov Amil Mayis oğlu

## Yeni iqtisadi layihələr həyata keçirilir

***Son illər Naxçıvan Muxtar Respublikasında yaradılan əlverişli biznes mühitindən bəhrələnərək daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli məhsullar istehsal edən emal və sənaye müəssisələri həyata vəsiqə alır.***

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən qəzetimizə verilən məlumata görə, cari ilin ötən 8 ayında da bu istiqamətdə işlər uğurla davam etdirilib, Sahibkarlığa Kömək Fondunun və sahibkarların şəxsi vəsaiti hesabına müxtəliftəyinatlı istehsal və xidmət sahələri yaradılıb. Belə ki, köynək, uşaq bezi, laminad örtüklü iş masası lövhəsi, melamin lövhə və PVC örtüklü parlaq lövhə, ətin konservləşdirilməsi, meyvə-tərəvəzqurutma, fərdi quşçuluq, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana kompleksi, limon məhsullarının yetişdirilməsi üçün istixana, bərk pendir, kompot, unlu-qənnadı məmulatların, qazlı-şirəli içkilərin istehsalı, həmçinin xidmət sahələri olmaqla, ümumilikdə, 28 sahə üzrə işlər başa çatdırılıb.

Məlumatda o da qeyd edilib ki, silikon yorğan, döşək və yataq bazası, müxtəlif ölçüdə və formada qızıl, gümüş zinət əşyaları, medal və döş nişanları, plastik qapı-pəncərə, kompot, südün emalı və xama, bərk pendir, ət qovurması, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana kompleksi, müxtəlif növ güllərin yetişdirilməsi üçün istixana kompleksi, qarışıq yem, fərdi quşçuluq və maldarlıq kompleksi, həmçinin müxtəlif növ xidmət sahələri olmaqla, 31 sahə üzrə işlər davam etdirilir.

## Səhiyyə işçiləri üçün əmək yarmarkası təşkil olunacaq

***Vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikada daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir.***

Buna görə də vaxtaşırı olaraq əmək yarmarkalarının keçirilməsi əməkqabiliyyətli əhalinin işlə təmin edilməsində mühüm rol oynayır. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən əmək yarmarkaları indi işaxtaran vətəndaşların ən çox üz tutduqları ünvandır.

Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin və işaxtaran vətəndaşların fəal iştirakını təmin edib. Növbəti belə əmək yarmarkası səhiyyə işçiləri üçün təşkil olunacaq.

Naxçıvan Muxtar Respublikası Səhiyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkil edəcəyi səhiyyə yarmarkası 17 sentyabr 2014-cü il tarixdə saat $10^{00}$-da keçiriləcək. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binasında keçiriləcək səhiyyə yarmarkasına işaxtaran ali və orta tibb təhsili olan vətəndaşlar müraciət edə bilərlər.

## "Su təchizatı və kanalizasiya investisiya Proqramı" çərçivəsində işlər sürətlə davam etdirilir

***Muxtar respublika sakinlərinin içməli su təchizatını yaxşılaşdırmaq, istismara yararsız olan kanalizasiya xətlərini yeniləşdirmək məqsədilə Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən "Su təchizatı və kanalizasiya investisiya Proqramı" çərçivəsində işlər sürətlə davam etdirilir.***

Proqramda nəzərdə tutulan tədbirləri vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün yaradılan şərait ötən müddət ərzində bir sıra quruculuq işlərinin başa çatdırılmasını təmin edib. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən aldığımız məlumata görə, Naxçıvan şəhərində "Su təchizatı və kanalizasiya investisiya Proqramı – Layihə 2" layihəsi çərçivəsində 10,2 kilometr şəhərdaxili kanalizasiya şəbəkəsi, 4,1 kilometr şəhərdaxili su şəbəkəsi çəkilib və 1211 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. Çirkab sutəmizləyici qurğunun tikintisi həyata keçirilir.

Rayon mərkəzlərində və yaxın kənd yaşayış məntəqələrində də layihə çərçivəsində xeyli iş görülüb. Şərur rayonundakı Arpaçay Su Anbarında 72 metr uzunluğunda yeni qalareya tikilib, 62 metr uzunluğunda mövcud qalareya təmir olunub. Qalareyadan su anbarına qədər 1,48 kilometr magistral xətt, su anbarından Şərur şəhərinə qədər aparıcı boru xəttindən 1,71 kilometr, həmçinin su şəbəkəsindən müxtəlif diametrli borularla 11,99 kilometr su xətti çəkilib və 247 ədəd ev birləşməsi aparılıb.

Babək rayonunda da yeni quruculuq tədbiri sürətlə davam etdirilir. Buradakı su anbarından Babək qəsəbəsinə qədər aparıcı boru xəttindən 2,06 kilometr xətt, müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 14,76 kilometr və daxili su şəbəkəsinin 16,61 kilometr xətti çəkilib və 1212 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Şahbuz rayonunda isə bu günədək müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 1,05 kilometr və daxili su şəbəkəsinin 11,78 kilometr xətti çəkilib, 354 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Culfa rayonunda da ahəngdar iş rejimi təmin edilib. Müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 2,14 kilometr və daxili su şəbəkəsinin 4,9 kilometr xətti çəkilib.

Su inşaatçıları Ordubad rayonunda layihənin vaxtında başa çatdırılması üçün öhdələrinə düşən vəzifələri yerinə yetirməyə çalışırlar. Bu səbəbdəndir ki, rayonda müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 15,39 kilometr və daxili su şəbəkəsinin 18,72 kilometr xətti çəkilib, 498 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Kəngərli rayonunda da bu iş mütəşəkkilliklə aparılır. Bu günədək müxtəlif diametrli borularla 4,79 kilometr daxili su şəbəkəsinin, 0,86 kilometr kanalizasiya şəbəkəsinin tikintisi başa çatıb.

Sədərək rayonunda su anbarından Heydərabad qəsəbəsinə qədər aparıcı boru xəttindən 1,79 kilometr xətt çəkilib, müxtəlif diametrli borularla 45,01 kilometr daxili su şəbəkəsinin, 31,43 kilometr kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılıb.

Bütün rayonların su hovuzlarında işlər davam etdirilir.

## Standartların tələblərinə nəzarət diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, cari ilin ilk 8 ayı ərzində komitə tərəfindən 295 istehsal müəssisəsində müşahidə xarakterli monitorinq aparılıb, etil spirti və alkoqollu içkilər istehsal edən 3 müəssisədə dövlət nəzarəti həyata keçirilib, 17 neft məhsullarının satışına və 8 əczaçılıq fəaliyyətinə təsdiqedici sənəd verilib.***

Pozuntuların aradan qaldırılması məqsədilə komitə tərəfindən 197 istehsal müəssisəsinə nöqsanların aradan qaldırılması üçün şifahi irad bildirilib, 11 sexdə şərait olmadığından və 1 sexdə məhsulun əmtəə görünüşü standartın tələblərinə cavab vermədiyindən istehsal müvəqqəti olaraq dayandırılıb, nöqsanlar aradan qaldırıldıqdan sonra istehsala icazə verilib. Bəhs olunan dövrdə 2224 ədəd sertifikat verilib ki, bunlardan1734 ədədi xaricdən idxal olunmuş məhsullara verilən tanınmalardan ibarətdir. 86 istehsal müəssisəsinin istehsal etdiyi sabit keyfiyyətli 176 adda məhsula AZS uyğunluq nişanından istifadə hüququ verilib.

Bundan başqa, daşınmaz əmlak obyektlərinə ekoloji tələblərlə bağlı 8, ictimai iaşə sahəsi ilə bağlı 73, qida məhsulları ilə bağlı 28, sənaye məhsulu ilə bağlı 6, avro-4 normalarının tətbiqi, avro benzin və avro dizel yanacağının keyfiyyəti ilə bağlı 3, uşaq oyuncaqlarının satışı ilə bağlı 17, ərzaq məhsullarının topdansatışı ilə bağlı 13, stomatoloji kabinələrlə bağlı 6, foto xidmətlərlə bağlı 17, avtoservislərlə bağlı 11, məişət elektrik cihazlarının təmiri ilə bağlı 17 olmaqla, ümumilikdə, 199 təsərrüfat subyektinə standartın məcburi tələbləri barədə maarifləndirici məktublar göndərilib.

Məlumatda o da bildirilir ki, ticarət obyektlərində 112391,32 manat dəyərində keyfiyyətsiz məhsulların satışının qarşısı alınıb, o cümlədən 12952,65 manat dəyərində məhsul aidiyyəti orqanın iştirakı ilə məhv edilib, 22670,57 manat dəyərində məhsul əmtəə görünüşü pozulduğundan satışdan çıxarılıb, 1744,7 manat dəyərində məhsul istehsalçı müəssisəyə geri göndərilib, 61987,4 manat dəyərində məhsulun satışına qadağa qoyulub, 1508 manat dəyərində məhsul təkrar emala, 11528 manatlıq məhsul təsərrüfatda yem məqsədilə "N" hərbi hissəyə təhvil verilib.

Məktəbli, tələbə və müəllim geyim formalarının, eləcə də məktəbli ləvazimatlarının keyfiyyət göstəricilərinin müasir standartlara uyğunlaşdırılmasına nəzarət edilməsi məqsədilə "Zümrüd" Kiçik Müəssisəsi tərəfindən istehsal olunan məktəbli formaları və köynək, Naxçıvan "Alt Trikotaj" ASC-də istehsal edilən tələbə oğlanlar üçün geyim və məktəbli formaları, Naxçıvan "Tikiş" ASC-də istehsal olunan tələbə qızlar üçün geyim formaları və müəllim formaları, Naxçıvan Qızlar Liseyində liseydə təhsil alan şagirdlər üçün istehsal olunan geyim formaları, həmçinin 20 dərzi sexində məktəbli formalarının istehsalı, 3 ticarət mərkəzində xaricdən gətirilmiş məktəbli formaları barədə maarifləndirici tədbirlər həyata keçirilib.

Təhsil, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin yeməkxanalarına alınan ərzağın keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması və onların yerli məhsullarla təminatına diqqətin artırılması məqsədilə aidiyyəti orqanla birlikdə 20 məktəbəqədər təhsil müəssisəsində, Əlillərin Bərpa və Uşaq Bərpa mərkəzlərində, 1 peşə liseyində və Ahıllar evində araşdırmalar aparılıb. Araşdırmalar zamanı aşkar olunmuş nöqsanlar aradan qaldırılıb.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı 7 istixanada monitorinq aparılıb, bostanlardan götürülmüş 41 halda torpaq laborator analizdən keçirilib. Qida məhsulları istehsal edən 149 müəssisədə istehsal olunan məhsullara 132 ədədi milli standartlara (AZS), 79 ədədi dövlətlərarası standartlara (ГОСТ) və 7 ədədi texniki şərtlərə əsasən, 218 uyğunluq sertifikatı verilib.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar 35 sertifikat verilib, 6 müəssisədə istehsal olunan 63 adda məhsulun etiket layihələri texniki normativ-hüquqi aktlara uyğun olaraq hazırlanıb.

Yerlərdə elektrik və qaz sayğaclarının standartlara uyğunluğunun yoxlanması və plomblanması ilə bağlı verilmiş tapşırığın icrası məqsədilə 10543 ədədi elektrik, 27252 ədədi qaz və 1397 ədədi su sayğacı olmaqla, 39192 ədəd sayğacın plomblanması və bunların 1130 ədədinin dövlət və özəl müəssisələrin, 38062 ədədinin isə yaşayış mənzillərinin payına düşdüyü də verilən məlumatlar sırasındadır.

**Xəbərlər şöbəsi**

*Əhalinin məşğulluğunun təmin olunması dövlətin mühüm tənzimləmə funksiyalarındandır. Məşğulluq kimi vacib bir sahədə də görülən işlər əmək ehtiyatlarından səmərəli istifadə məqsədi daşıyır. Çünki iş qüvvəsi sahibi olan insan hər şeydən dəyərlidir və bu dəyərin maddiləşərək məhsul və xidmətlər şəklində insanların xidmətinə təqdim edilməsi onun özünün və digər insanların normal yaşayışı üçün vacib şərtdir. Məşğulluq problemi hər zaman üçün aktual olduğundan və burada əhalinin müxtəlif təbəqələrinin maraqları ödənildiyindən bütün prioritetlər nəzərə alınmaqla uzunmüddətli perspektivə hesablanmış dövlət proqramlarının əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır.*

## Məşğulluq üzrə dövlət proqramı uğurla icra olunur

Bu baxımdan mövcud iş yerlərinə iqtisadi fəal əhalinin münasibətlərini tənzimləyən, hər kəsin qabiliyyətindən, sahib olduğu iş qüvvəsindən səmərəli istifadəni qarşıya məqsəd qoyan dövlətin məşğulluq siyasətinin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” qarşıya qoyulmuş məqsədləri və gözlənilən nəticələri ilə çox əhəmiyyətli dövlət sənədidir. Belə ki, bu dövlət proqramında muxtar respublikada əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin həyata keçirilməsi, əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillərin aparılması, peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, işaxtaranların, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi, əlillərin əmək bazarına inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması kimi qarşıya məqsədlər qoyulmuşdur. Dövlət proqramında göstərilən bu məsələlərin uğurlu həlli işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılması, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi işində müsbət nəticələr əldə olunmasına imkan yaradacaqdır. Dövlət proqramının qəbul edilməsindən ötən müddət ərzində əhalinin məşğulluq məsələlərinin təmin olunması sahəsində verilmiş tapşırıqların icrası istiqamətində görülmüş işlərlə tanış olmaq üçün sənəddə adıçəkilən dövlət orqanlarına elektron məktubla sorğular göndərdik. Həmin orqanlardan bəzilərinin sorğu məktublarına operativ, bəzilərinin, necə deyərlər, “dədə-baba qaydası” ilə göndərdiyi cavabları ümumiləşdirərək proqramın icrası ilə bağlı işlərin vəziyyətini oxucularla paylaşmaq istədik. Çünki məşğulluğun təmin olunması dövlətin prioritet vəzifəsi olduğu kimi, ictimaiyyəti də yaxından maraqlandıran məsələdir.

İlk olaraq, adıçəkilən dövlət proqramının icra vəziyyəti ilə bağlı koordinator qurum olan Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü ilin ilk 8 ayı ərzində görülmüş işlərə nəzər salaq. Nazirlik muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparmış və əmək bazarında təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığın sabit olduğu qənaətinə gəlinmişdir. Əmək bazarında müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədi ilə 332 müəssisədə sorğular aparılmışdır. Cari ilin 8 ayı ərzində məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 1859 nəfər işaxtaran müəssisələrdə mövcud olan vakansiyalar üzrə işə cəlb edilmiş, 2014-cü ilin aprel, iyun və avqust aylarında keçirilmiş əmək yarmarkalarında 747 nəfər işlə təmin olunmuşdur. Bu dövrdə nazirlik tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində iyirmiyə yaxın peşə növləri üzrə kurs təşkil olunmuşdur.

İnsanın peşə seçiminə marağının hələ gənc yaşlarından formalaşdığını nəzərə alsaq, bu dövrdə aparılan peşə seçimi tədbirlərinin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təsdiq etdiyi qrafikə uyğun olaraq, tədris müddəti ərzində rayon (şəhər) Məşğulluq mərkəzləri tərəfindən muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədi ilə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir.

Verilən məlumatda bildirilir ki, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin işlə təmin olunması üçün 163 kvota yerinin ayrılması təmin edilmiş, 82 nəfər kvota yerlərinə işə göndərilmişdir. Sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqlarının təmin edilməsi məqsədilə evlərdə xalça toxunuşu ənənəsi davam etdirilmiş, aztəminatlı ailələrdən əmək qabiliyyətli 129 şəxs münasib işlə təmin olunmuşdur.

Bəhs olunan dövrdə işçilərin əmək hüquqlarının təmin edilməsi də diqqət mərkəzində saxlanılan məsələlərdən olmuşdur. Belə ki, işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsinə nəzarət edilməsi məqsədilə 2014-cü ilin ilk 8 ayı ərzində, ümumilikdə, 140 halda yeni əmək müqaviləsinin bağlanılmasına, 310 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuşdur. Əmək müqaviləsinin bağlanmamasına görə 2 fiziki şəxsə 2000 manat məbləğində cərimə tətbiq olunmuş, əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə 3 vəzifəli şəxs 3000 manat məbləğində cərimə edilmişdir. Bu müddətdə 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə əlavə olaraq 46 kiçik və orta sahibkarlıq obyekti istehsalatda bədbəxt hadisələr, peşə xəstəlikləri və peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortaya cəlb olunmuşdur.

Dövlət proqramının qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin muxtar respublika ərazisində əmək fəaliyyəti üzərində nəzarət daha da gücləndirilmişdir. 18 dekabr 2013-cü il tarixdən 1 sentyabr 2014-cü il tarixədək aparılmış yoxlamalar zamanı qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 6 əcnəbi aşkarlanmışdır.

Müasir dövrdə əmək bazarını sürətli və etibarlı informasiyasız təsəvvür etmək mümkün deyildir. Bu baxımdan bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən məşğulluq tədbirlərinə dair məlumatların işaxtaranlara çatdırılması məqsədilə internet saytı ***(isaxtar.nmr.az)*** hazırlanmışdır. Bununla yanaşı, işaxtaranların təşkil olunacaq peşə kurslarına təşviq edilməsi üçün kütləvi informasiya vasitələrində mütəmadi olaraq elanların verilməsi də təmin edilir.

Təcrübə sübut etmişdir ki, iqtisadiyyatın və əhalinin rifah halının yüksəlməsi insan amilinə xidmət edən uzunmüddətli, məqsədyönlü işlər nəticəsində mümkün olur. Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğu məsələsinin də davamlı həlli məhz regionun öz daxili imkanları hesabına stabil iqtisadi artımını təmin etmək imkanı yaradır. Naxçıvanda mövcud olan təbii, istehsal və investisiya imkanlarının regionun əmək ehtiyatları hesabına hərəkətə gətirilərək bu sabitliyi daha uzun müddətə təmin etmək isə haqqında yığcam məlumat verdiyimiz dövlət proqramının əhəmiyyətini bir daha ortaya qoyur. Bir inam vardır ki, qarşıdakı dövrdə proqramın bütün müddəalarında əks olunan tapşırıqların yerinə yetirilməsi ilə naxçıvanlıların bütün sahələrdə olduğu kimi, səmərəli məşğulluğunda da istəkləri tam təmin olunacaqdır.

## Aqrar sektor: emal sənayesi və sabit bazar

***Azərbaycan tarixən əkinçilik mədəniyyətinə sahib olmuş, taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, tərəvəzçiliyin və heyvandarlığın əsas mərkəzlərindən biri hesab edilmişdir. Ölkəmizdə mövcud olan əlverişli torpaq, iqlim, hava və su ehtiyatları burada kənd təsərrüfatını müxtəlif istiqamətlərdə inkişaf etdirməyə imkan verir. Qədim İpək Yolu üzərində yerləşən Azərbaycanda yetişdirilən məhsullar ixrac olunaraq süfrələri bəzəmiş, ona şöhrət qazandırmışdır. Yaxın keçmişdə torpağımızın bar-bərəkəti təkcə azərbaycanlıların deyil, eyni zamanda digər ölkələrin, min kilometrlərlə uzaqdakı insanların da ehtiyaclarını ödəmiş, dar gündə gərəyi olmuşdur.***

Hazırda kənd təsərrüfatının dayanıqlı inkişafı müasir Azərbaycan Respublikası iqtisadiyyatı üçün ən mühüm məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur. Bu isə, öz növbəsində, qısa zaman ərzində neftdən asılılığı aradan qaldırmaq və iqtisadi inkisafın regionlara daha çox yayılmasını təmin etmək deməkdir. İndi ölkə iqtisadiyyatında kənd təsərrüfatı informasiya-kommunikasiya texnologiyaları və turizm ilə bərabər, neft sektorundan sonra ən iri sahələrdən biri hesab olunur. Kənd təsərrüfatının çoxşaxəliliyinin təmin olunması, bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı ilə bərabər, onların emal edilməsi, son istehlakçıya çatdırılması kimi məsələlər müasir aqrar sektorun inkişafının əsas istiqamətlərindən biridir. Sərbəst bazar prinsiplərinə keçidlə əlaqədar islahatların aparılması, onların genişləndirilməsi, yeni təsərrüfat formaları yaradılması da bu baxımdan günün vacib məsələlərindəndir.



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası tarixən aqrar-sənaye diyarı kimi tanınmışdır. Burada əkinçilik və heyvandarlıq əhalinin əsas məşğuliyyəti olmuş, region özünün yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə seçilmişdir. Dövrün tələblərinə uyğun olaraq, Naxçıvanda əsasən, buğda, arpa, çəltik kimi dənli bitkilər əkilib-becərilmiş, bostançılıq, üzümçülük sahələri inkişaf etmiş, bağçılıqda yüksək nailiyyətlər əldə edilmiş, arıçılıq, təbii bal istehsalına xüsusi önəm verilmiş, sonrakı dövrlərdə isə pambıqçılıq, ipəkçilik sahələrində də yüksəlişə nail olunmuşdur. Tarixi mənbələrin məlumatlarına görə, Naxçıvan mahalının əhalisi bütün bu qeyd olunan sahələrin məhsulları ilə nəinki öz daxili tələbatını ödəyirdi, hətta bəzi məhsullar üzrə ixrac potensialına da malik idi. Naxçıvanlılar meyvəçilik və tərəvəz bostançılığının inkişaf etdirilməsi ilə ev təsərrüfatlarında müxtəlif çeşiddə mürəbbələr, meyvə şirələri, turşular kimi ərzaq məhsullarının istehsalını həyata keçirmişlər.

Torpağa qayğı ona yüksək aqrar mədəniyyət və emal sənayesi standartlarındakı münasibətdən başlanır. Sahə üzrə mütəxəssislər də təsdiq edərlər ki, istifadəsiz qalmış ərazi şoranlaşa, eroziyaya uğraya, öz təbii formasını itirə bilər. Ona görə də torpağı müdafiə etdiyimiz kimi, ondan maksimum səmərə ilə istifadə olunmalı, ekoloji təmizlik və rasionallıq prinsiplərinə əməl edilməlidir.

Aqrar bazarda özünəməxsus problemlər vardır. İlk növbədə, kənd təsərrüfatı iqlim şərtlərindən asılı olub, mövsümiliyə yüksək dərəcədə həssasdır. Bununla yanaşı, ərzaq təminatı əhalinin bütün təbəqələrini maraqlandırdığı üçün bu problem ilin bütün dövrləri ərzində sabit qiymətlər və lazımi ərzaq təklifi həcmində tənzimlənməlidir. İkinci problem isə ərzaq məhsullarının saxlanılması, onların daimi olaraq keyfiyyətli şəkildə istehlakçılara çatdırılması məsələsidir. Burada əsas məqam bu sahədə daxili bazarın qorunması, əhalinin ərzaq məhsulları ilə təminatında idxaldan asılılığın azaldılması və kənd təsərrüfatı məhsulları istehsalçılarının da iqtisadi maraqlarının ödənilməsi istiqamətində çoxlu sayda genişprofilli emal sənayesi müəssisələrinin yaradılmasıdır ki, Naxçıvanda belə müəssisələrin sayı getdikcə artmaqdadır.

Kənd təsərrüfatı məhsulları əsasında emal sənayesinin inkişaf etdirilməsi təkcə bazara rəqabətqabiliyyətli məhsul çıxarmaq üçün çeşidləmə, qablaşdırma, saxlama və reklam işlərinin həyata keçirilməsi demək deyildir. Emal sənayesi həm də istehsalçıya yönəlmiş bir investisiya sifarişi rolu oynayır. Bu, xüsusən aqrar sahədəki kiçik sahibkarları maraqlandıran bir məsələdir. Emal sənayesi aqrar bazarın elə bir ünsürüdür ki, o, öz inkişafı ilə dövlətin ərzaq təhlükəsizliyi siyasətinə xidmət etməklə bərabər, istehsalçı ilə istehlakçı arasında həm bazar, həm də keyfiyyət zəmanəti körpüsü rolu oynamaqdadır.

Son illər kənd təsərrüfatı məhsullarının emalı sahəsində böyük işlər həyata keçirilmiş, onlarla yeni kiçik və iri müəssisələr tikilərək, yaxud bərpa olunaraq fəaliyyətə başlamışdır. Bu illər ərzində muxtar respublikamızda çoxlu sayda taxıl, süd məhsulları emalı, tünd və alkoqolsuz içkilər, kolbasa, qənd istehsalı, şəkərli və unlu-qənnadı, geniş çeşiddə çörək-bulka məmulatları, makaron, halva, vafli, konservləşdirilmiş balıq, təbii meyvə şirələri, meyvə qurusu, kənd təsərrüfatı məhsullarının qovrulması və paketlənməsi, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, geniş çeşiddə xörək duzu istehsalı və təbii balın qablaşdırılması müəssisələri tikilib istifadəyə verilmişdir. Son illərin rəqəmlərinə nəzər salsaq, görərik ki, artıq regionda yerli xammala əsaslanmaqla 116 növdə ərzaq məhsulları istehsal olunur. 107 növdə ərzaq məhsullarına olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Regionda kənd təsərrüfatı məhsulları emalı sənayesinin inkişafı etibarlı ərzaq təminatının yaradılması, daxili bazarın qorunması kimi iqtisadi prioritetlərdən əlavə, çox dərin sosialməzmunlu məsələləri də əhatə edir. Bir zamanlar bazarlarımızda və mağazalarda tüğyan edən, gen mənbəyi bilinməyən, yetişdiyi torpağın havası, suyu bizim üçün yad olan idxal ərzaq məhsulları ilə indi ölkəmizin paytaxtında və digər yaxın xarici ölkələrdə hamının yaxşı tanıdığı Naxçıvanın yerli məhsullarının müqayisəsi bu fikirlərimizi daha dəqiq açıqlayır. Ona görə də inkişaf edən emal sənayesini, sadəcə, bu növ sahibkarların fəaliyyət sferası kimi deyil, eyni zamanda regionun torpaq sahibkarlarının əməyinin tamamlayıcısı, minbir zəhmətlə başa gələn kənd təsərrüfatı məhsullarının son etiketi kimi də qiymətləndirmək mümkündür. Bu qiyməti korlamamaq, onu daha da məşhur və hamının hörmət etdiyi “Naxçıvan məhsuludur” kimi tanıtmaq isə bu günün vacib məsələsidir.

**Əli CABBAROV**

## Payızlıq taxıl əkininə hazırlıq tədbirləri sürətləndirilir

Muxtar respublika əhalisinin taxıl məhsullarına olan tələbatını ödəmək üçün həyata keçirilən məqsədyönlü tədbirlər bir neçə ildir ki, bəhrələrini verməkdədir. Taxıl istehsalçılarının müxtəlif yardımlarla, keyfiyyətli toxum sortları ilə təchiz olunmaları, onların güzəştli kreditlərdən səmərəli istifadəsinə şərait yaradılması taxılçılığın inkişafına stimul olan başlıca səbəblərdir. Ötən ilin payızında və cari ilin yazında torpaq mülkiyyətçiləri tərəfindən 2014-cü ilin məhsulu üçün 29697,7 hektarı payızlıq, 6052 hektarı isə yazlıq olmaqla, 35749,7 hektar sahədə taxıl əkilmişdi. Taxıl zəmilərinin 26274,1 hektarında buğda, 9475,6 hektarında isə arpa əkilib. Sahələrdə bol məhsul yetişdirilib. Əvvəlcədən həyata keçirilən tədbirlər taxıl tədarükünü optimal müddətdə başa çatdırmağa və məhsulu itkisiz toplamağa imkan verib, ümumilikdə, muxtar respublikada 103 min 70 ton məhsul tədarük edilib. Bunun 77 min 288 tonu buğda, 25 min 782 tonu arpadır. Məhsuldarlıq 28,8 sentnerdir.

Bundan ruhlanan taxılçılar 2015-ci ilin məhsulu üçün hazırlıq tədbirlərinə başlayıblar. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, keyfiyyətli şum aparılması məqsədilə sahələrə çıxarılacaq texnikalar təmir olunub. Sentyabrın 8-dək 2545 hektar sahədə şum aparılıb. Şum qaldırılmasında ilk yerdə Kəngərli rayonudur. Bu bölgədə 723 hektar sahə əkinə hazır vəziyyətə gətirilib. Babəkli torpaq mülkiyyətçiləri 565 hektar sahədə şum qaldırılmasına nail olublar. Şərurlular 524 hektarda şum qaldırıblar. Culfa rayonunda bu rəqəm 359 hektar təşkil edir. Dağlıq zonada yerləşən Şahbuz rayonunda 131, sərhəd bölgəsi Sədərəkdə 103, Naxçıvan şəhərində və Ordubad rayonunda 70 hektar sahə şumlanıb.

Şum qaldırılması davam etdirilir.

**Xəbərlər şöbəsi**





## Mədəniyyət











# Kəngərli rayonunun mədəni həyatı qaynarlığı ilə diqqət çəkir

***Bu gün muxtar respublikamızın hərtərəfli inkişafı onun mədəni həyatını da əhatə edir. Regionun qədim tarixi, mədəni zənginliyi hər bir bölgənin simasında daha aydın görünür. Məhz bu tarixi və mədəni zənginliyi özündə birləşdirən rayonlarımızdan biri də bu il yaradılmasının on illiyini qeyd etdiyimiz Kəngərli rayonudur. Ötən dövr ərzində həyata keçirilən böyük quruculuq tədbirləri rayonun mədəni həyatına da ciddi təsir göstərmiş, yeni mədəniyyət müəssisələri yaradılmış, mövcud mədəniyyət obyektlərinin əksəriyyəti əsaslı şəkildə yenidən qurulmuşdur. Bütün bunlar adıçəkilən sahənin inkişafına əsaslı stimul olmuşdur. Elə bu yaxınlarda Kəngərli rayonuna növbəti səfərimiz zamanı bunun bir daha şahidi olduq. Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Kərim Qazıbəyovla da söhbətimizin əsas mövzusu rayonun mədəni həyatı haqqında oldu.***

Şöbə müdiri bildirdi ki, rayonda 1 mərkəzləşdirilmiş kitabxana və onun 11 filialı, Tarix-Diyarşünaslıq Muzeyi və Şahtaxtinskilər Muzeyi, 2 Uşaq Musiqi Məktəbi, Mədəniyyət Evi fəaliyyət göstərir. Bundan əlavə, 5 kənd mədəniyyət evi, 5 kənd klubu Kəngərli rayon sakinlərinin xidmətindədir. Rayonun Şahtaxtı, Qarabağlar, Çalxanqala, Yeni Kərki, Qabıllı, Böyükdüz, Təzəkənd və Xıncab kəndlərindəki mədəniyyət müəssisələri müasir binalarda yerləşdirilmişdir. 2012-ci il may ayının 30-da Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə rayon mərkəzi Qıvraq qəsəbəsində Heydər Əliyev Mədəniyyət və İstirahət Parkının, Kəngərli Rayon Mədəniyyət Evinin açılışı rayon sakinlərinin uzun müddət yaddaşında yaşayacaq. Bu ünvanlarda yaradılmış hərtərəfli şəraiti onlar insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün göstərilən böyük qayğı kimi dəyərləndirirlər.

Məlumat üçün bildirək ki, adıçəkilən parkın ərazisində yerləşən ikimərtəbəli Mədəniyyət Evinin sahəsi 1743 kvadratmetrdir. Binanın birinci mərtəbəsində inzibati otaqlar, 286 yerlik tamaşa zalı, ikinci mərtəbədə 6 inzibati otaq, dekorasiya və qrim otaqları istifadəyə verilmişdir. Mədəniyyət Evinin foyesində bir neçə sərgi təşkil edilmişdir. Bunlardan biri ümummilli liderimizin həyatı və siyasi fəaliyyətini özündə əks etdirir. Dahi rəhbərə böyük hörmət və ehtiramın ifadəsi olan sərgidə ulu öndərin qədim mədəniyyətimizin inkişafına göstərdiyi qayğı da öz əksini tapmışdır. Digər bir sərgi isə rayonun yarandığı dövrdən bu günədək olan sosial-iqtisadi inkişafının göstəricilərini qəzet, kitab materialları, bukletlər və fotoşəkillərlə əks etdirir. “Şəhidlər unudulmur” adlı sərgi torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış soydaşlarımıza həsr olunmuşdur. Gənclərdə Vətənə məhəbbət hissini gücləndirmək baxımından diqqəti cəlb edən sərgidə bu bölgədə boya-başa çatan və şəhidlik zirvəsini fəth edənlər haqqında geniş məlumatlar verilir.

Müsahibimiz bildirdi ki, Mədəniyyət Evinin nəzdində bir neçə dərnək fəaliyyət göstərir, rəsm, keramika, bacarıqlı əllər, biçmə-tikmə, toxuculuq, xalçaçılıq dərnəkləri üzvlərinin hazırladıqları maraqlı və göz-oxşayan əl işlərindən ibarət sərgilər təşkil edilir.

Öyrəndik ki, rayon Mədəniyyət Evinin nəzdində bir neçə musiqi kollektivi də yaradılmışdır. “Gülüm hey” qızlardan ibarət folklor qrupu, fərdi saz ifaçıları daim öz repertuarlarını zənginləşdirirlər. Rayon Mədəniyyət Evində fəaliyyət göstərən folklor kollektivlərinin, fərdi ifaçıların çıxışları muxtar respublika sakinləri tərəfindən rəğbətlə qarşılanır.

“Gülüm hey” folklor qrupunun yaradılması, fəaliyyəti barədə bir qədər ətraflı danışmağa dəyər. Bu qrupun yaradıcısı uzun illər Qarabağlar kənd mədəniyyət evində çalışmış Əsmər Tarverdiyevadır. Qrup bir vaxtlar toylarımızın, el şənliklərinin bəzəyinə çevrilmişdir. Lakin bir qədər sonra onun fəaliyyəti dayandırılmışdır. Muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafına göstərilən dövlət qayğısı yenidən bu qrupun fəaliyyətinə yaşıl işıq yandırmışdır. Əsmər Tarverdiyeva qrupun fəaliyyətinin bərpa olunmasını öz üzərinə götürmüşdür. Rayonun müxtəlif kəndlərində yaşayan 10 nəfər istedadlı qız rayon Mədəniyyət Evinə cəlb olunmuşdur. Sözləri yaşlı qadınlardan toplanılmış beş “Gülüm hey”ə quruluş verilmişdir. Yeni yaradılan folklor qrupunun rəhbəri Gülşən Qurbanovadır.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə 2014-cü ilin Naxçıvanda “Muxtariyyət ili” elan olunması ilə əlaqədar olaraq ilin əvvəlində tədbirlər planı işlənib hazırlanmışdır. Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan bütün müəssisələrdə “Muxtariyyət – 90” devizi altında fotostendlər, sərgilər təşkil olunmuş, sənədli filmlər nümayiş etdirilmişdir. Muxtar respublikanın 90 illik yubileyi münasibətilə rayonun Qıvraq qəsəbəsində, Qarabağlar, Xok, Şahtaxtı, Çalxanqala kəndlərində konsert proqramları təşkil olunmuş, həmin kəndlərdəki tam orta məktəblərdə “Doğma diyarım” mövzusunda şeir müsabiqələri keçirilmişdir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə rayon mərkəzində bayram konserti təşkil olunmuşdur. Həmçinin “Muxtariyyət ili” ilə əlaqədar Naxçıvan Dövlət Filarmoniyasının solistləri konsert proqramı və Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarla rayon sakinləri qarşısında çıxışlar etmişlər.

Rayon Tarix-Diyarşünaslıq Muzeyi bölgədəki maddi-mədəniyyət nümunələrinin etibarlı şəkildə qorunub saxlanılması, tədqiq edilib öyrənilməsi, təbliğ olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 iyun 2006-cı il tarixli Sərəncamı ilə yaradılmışdır. 2007-ci ilin sentyabrından muzey yeni binada fəaliyyət göstərir. Muzeydə rayonun ən qədim dövrlərindən bu günədək tarixini özündə əks etdirən 2747-yə yaxın eksponat saxlanılır. Ekspozisiya zalında isə onlardan 777-si nümayiş etdirilir. Rayon Tarix-Diyarşünaslıq Muzeyində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi və ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə sərgilər təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şahtaxtinskilər Muzeyinin yaradılması haqqında” 2010-cu il 9 fevral tarixli Sərəncamına uyğun olaraq, rayonun Şahtaxtı kəndində Şahtaxtinskilər Muzeyi yaradılmışdır. 2010-cu ilin may ayında istifadəyə verilən həmin muzeydə Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, parlamentarizmin, dövlət quruculuğu və hərb sənətinin inkişafında xidmətləri olan bir nəslin nümayəndələrinə aid 400-ə yaxın eksponat toplanılmışdır. Hər iki muzey rayona yolu düşən qonaqların ən çox ziyarət etdiyi ünvanlar sırasındadır.

Rayonun Qıvraq qəsəbəsində və Çalxanqala kəndində uşaq musiqi məktəbləri fəaliyyət göstərir. Bu məktəblərdə fortepiano, tar, kamança, klarnet, qarmon, nağara, saz sinifləri üzrə şagirdlər musiqi təhsili alırlar. Hər iki musiqi məktəbi müasir tədris avadanlıqları ilə təmin olunmuş yeni binalarda yerləşir. Rayonun musiqi məktəblərində xalq çalğı alətləri, sazçalan qızlar ansamblları, xor kollektivləri və nəfəs alətləri orkestri fəaliyyət göstərir. Onu da qeyd edək ki, hər iki musiqi məktəbində dərs deyən ali və orta ixtisas təhsilli müəllimlərin çoxu ilk musiqi təhsillərini bu məktəblərdə alıblar. Bu məktəblərin ayrı-ayrı kollektivləri və üzvləri muxtar respublikada keçirilən baxış-müsabiqələrində yaxından iştirak etmişlər. 2014-cü il mart ayının 3-də həmin musiqi məktəbləri “Muxtariyyət ili” ilə əlaqədar konsert proqramları ilə çıxış etmişlər. May ayının 6-da isə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Naxçıvan şəhərində keçirilən müsabiqənin yekun konsertində Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbinin nəfəsli alətlər orkestri və Çalxanqala Kənd Uşaq Musiqi Məktəbinin sazçılar ansamblı çıxış etmişlər. Hər iki kollektiv fəxri fərmanla təltif olunmuşdur. Bu ilin may ayında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə və muxtar respublikanın mədəni həyatındakı xidmətlərinə görə rayon Mədəniyyət Evinin direktoru Tofiq Rüstəmov fəxri fərmanla təltif edilmişdir.

*Bu gün Kəngərli rayonunda mədəni həyat öz qaynarlığı ilə diqqəti çəkir. Bölgənin bu sahədə çalışan insanları öz işlərini günün tələbləri səviyyəsində qurmağa, yaradılan şəraitdən səmərəli istifadə etməyə, rayon əhalisinin asudə vaxtının səmərəli təşkilinə səy göstərirlər.*

**✍ Sona MİRZƏYEVA**

---

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Xalqımızın birlik rəmzi — yallı

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamında deyilir:* ***“Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaqları eramızdan əvvəl IV-I minilliklərə aid Gəmiqaya təsvirlərində, “Avesta” və “Kitabi-Dədə Qorqud” kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir”.***

İncəsənətin ən geniş yayılmış növlərindən biri olan rəqs sənətinin tarixi zərb musiqi alətlərinin yaranma tarixindən xeyli qədimdir. İbtidai icma quruluşu dövründə Azərbaycan ərazisində yaşayan müxtəlif qəbilə üzvləri ova çıxdıqları zaman əl çala-çala, ya da ağac və daşları bir-birinə vuraraq rəqs etmişlər. Bu cəhətdən muxtar respublikamızın Ordubad rayonu ərazisində yerləşən Gəmiqayadakı qaya təsvirləri xüsusilə səciyyəvidir. Qayanın mərkəzi hissəsində od və Günəş rəmzi sayılan kiçik dairə, onun ətrafında isə qollarını yuxarı qaldırıb rəqs edən insanın təsviri fikrimizi təsdiq edən tutarlı faktlardandır. Naxçıvan şəhərindən 18 kilometr cənubda yerləşən və eradan əvvəl II-I minilliyə aid yaşayış yeri olan Qızılburunda aşkar edilmiş polixrom boyalı küpə üzərindəki rəqs-ifaçılıq təsviri yurdumuzda yallının çox qədim tarixə malik olduğundan xəbər verir. Bu təsvirlər həm də yallıların qədim dünyanın ən nadir sənət nümunələrindən biri olduğunu göstərir. Xalqımızın mədəniyyət incisi olan rəqs sənəti insanların ictimai həyat tərzinin, bədii-estetik zövqünün ayrılmaz tərkib hissəsinə çevrilmiş, gözəllik və incəliyin, həyatsevərlik və sevincin, mərdlik və mübarizliyin, vətənpərvərlik və insanpərvərliyin təzahürü olmaqla xalq ruhunu oxşayan digər çalarlarla zənginləşmişdir.



O da qeyd edilməlidir ki, qədim dövrdə yaranan yallılar mərasim xarakterli olmaq baxımından da diqqəti cəlb edən məsələlər sırasındadır. Rəqs tayfa və ailə birləşmələri tərəfindən keçirilən müəyyən bir mərasimin vacib elementlərindəndir. Uzaq keçmişdə insanlar Günəşə, Aya, küləyə, oda, suya, ağaclara və bəzi heyvanlara sitayiş etmiş, onların şərəfinə təzim ibadətləri və mərasim rəqsləri ifa etmişlər. Mənbələrdə ənənəvi el sənəti nümunələrində canlıların fiqurlarından quraşdırılmış ornamentlər içərisində ən geniş yayılanının heyvan rəsmləri olduğu qeyd edilir. Və göstərilir ki, butipli rəsmlər, əsasən, üç qrupa bölünür: ev, vəhşi və fantastik heyvan rəsmləri. Keçmişdə ev heyvanları içərisində ən geniş yayılanı at, öküz, qoyun və dəvə olmuşdur. İnsanların həyat və təsərrüfatlarında mühüm rol oynayan bu heyvanlar hələ ta qədimdən sənət nümunələrində stilizə edilmiş halda təsvir olunmuşdur. Mənbələrdə qoç buynuzunun, pişik ayağının, qurd izinin, dəvə ləpirinin el sənətinin müxtəlif növlərində təsvir edilməsinə rast gəlinir. Bizim üçün maraqlı faktlardan biri odur ki, bu, incəsənətin ən geniş yayılmış növlərindən olan, yaranması Naxçıvan diyarının Şərur bölgəsi ilə əlaqələndirilən yallılara da hopmuşdur.

Şərur bölgəsində yaranan, qədimliyinə görə ikinci yallı hesab olunan “Hoydu, nərim” yallısının yaranma tarixi haqqında bəzi məlumatları oxuculara çatdırmaq istəyirik.

Mənbələrdə göstərilir ki, insanlar keçmişdə dağ aşırımlarında yaşadıqlarından və ehtiyac üzündən vəhşi heyvanları əhliləşdirmək istəmişlər. Bu heyvanlardan ilki at, qoyun və dəvə olmuşdur. İnsanlar üçün gərəkli olan heyvanlardan ən əlverişlisi dəvə sayılmışdır. Onun ağır yük götürə bilməsi, soyuğa, istiyə, susuzluğa, aclığa dözümlülüyü, sahibinə sədaqəti məişət üçün olduqca əlverişli əlamətlər idi. O həm də hər hansı bir çətin keçilən yolu kəsə gedə bilən heyvandır. Bununla bağlı şifahi xalq ədəbiyyatının bayatı janrında bəzi nümunələrə də rastlanmaqdadır.

*Əzizim, kəsəmənnər,*
*Yol gedər kəsəmən nər.*
*Poyludan ölən olsa,*
*Baş yolar kəsəmənnər.*

Mənbələrdə Şərur bölgəsində “Kərimbəyli-Kəsəməni” adlanan qədim yaşayış yerinin olması, burada insanların dəvə saxlamaları barədə məlumatlara rast gəlmək mümkündür. Bu məlumatlarda həmçinin dəvənin, adətən, yolu kəsə getməsi faktı da diqqətə çatdırılır. Həmin prosesi özündə ehtiva edən yallılardan birinə “Hoydu, nərim” adının verilməsi də məhz buradan qaynaqlanır. Yallıda bir dəstənin o biri dəstənin qarşısına keçərək kəsə irəli keçməklə nərin hərəkətinə uyğun yürüşü təcəssüm olunur. Ağır yük altında yatmayan, yükü belindən salmayan, getdiyi yol nə qədər əziyyətli olsa belə, yoluna davam edən, yüksək dağ yolunu cəsarətlə qət edən, çətinliyə düşəndə nərə çəkən dəvəyə insanların sitayişi səbəbsiz olmamışdır. Ona görə də dəvəyə tərif olaraq əcdadlarımız dərin mənalı və dəyərli, dəvə karvanının yerişini, hərəkətini təcəssüm etdirən yallı yaratmış və ona “Hoydu, nərim” adını vermişlər.

Yeddihecalı bayatının səsləndirildiyi “Arzumanı” yallısı muxtar respublikanın Şərur bölgəsində ən geniş yayılan qədim sənət nümunələrimizdəndir. Yallı ifaçılarının hərəkətlərində arzusunda olduqları diləklərinə çatmağa can atdıqları hiss olunur. Məhz bu fikir yallının qayəsini təşkil edir. Burada maraqlı məqam yallı adının ikinci komponenti olan “manı” sözü ətrafında aparılan tədqiqatlar barəsindədir.

Əsrlərin süzgəcindən süzülüb bu günümüzə qədər gəlib çatan və dil ifası ilə gedilən yallılarda Azərbaycan şifahi xalq ədəbiyyatının bayatı janrına aid nümunələrdən daha çox istifadə olunur. Bayatı şeir şəklinin adı haqqında bir sıra mülahizələr mövcuddur. “Türk xalqları ədəbiyyatında “manı” növü və Azərbaycan bayatılarının xüsusiyyəti” adlı tədqiqat əsərinin müəllifi olmuş Əmin Abidə görə, türk xalqları folklorunda heca vəzninin “yeddili”si ilə yaradılan dördmisralı müstəqil mənzumələr yalnız Azərbaycanda “bayatı” adlanır. Mənbələrdə qərb ləhcəsində bu şeir növünün “mani” adlandırıldığı bildirilir. Alim qeyd edir ki, Azərbaycanın bəzi kəndlərində də bayatıya “mani-məni”, “mahni-mahna” deyilir. Tədqiqatçılar “manı” sözünün mənasına da toxunmuşlar. A.Samoyloviçə görə, osmanlılar və azərbaycanlılar bunu “mani” kimi yazırlar. Əmin Abid yazır ki, Övliya Çələbi həmin şeir şəklindən öz “Səyahətnamə”sində istifadə etmiş və bunu “məni” kimi yazmışdır. Əmin Abid belə bir nəticəyə gəlir ki, sözün kökü “məni”dir və türkcə tələffüzünə görə “mani” olmuşdur. Sonralar xalqımız içərisində həmin şeir şəkli bayatı kimi, xalq şerinin digər şəkilləri də mahnı, nəğmə kimi sabitləşmişdir. M.F.Köprülünün yazdığına görə, türk xalqlarının ən qədim nəzm şəkli manidir. Çox güman ki, muxtar respublikamızın Şərur bölgəsinə aid “Arzumanı” yallısı arzu və istəkləri ifadə edən bayatıların (“manı”ların) məcmusudur.

**Nizami ƏZİZƏLİYEV**

*Avqust ayında muxtar respublikada epidemioloji vəziyyət sabit olmuş, zəhərlənmələr baş verməmiş, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilmişdir.*

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

Yeni doğulmuş uşaqların 96,5 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai-iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, tullantı və çirkab suları axıdılan yerlərdə, məişət tullantıları qoyulan meydançalarda 33690 kvadratmetr dezinfeksiya, 22250 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilmişdir.

İstehsal olunmuş məhsulların sertifikatlaşdırılması işi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə aparılmış, ay ərzində 57 məhsul sertifikatlaşdırılmışdır.

Ay ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş, 57 su, 558 yuyuntu nümunələrinin, 364 digər nümunələrin müayinələri aparılmışdır.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılmış, səhiyyə üzrə 137, təhsil üzrə 103, qidalanma sənayesi, ictimai-iaşə və ticarət üzrə 223, kommunal sahələr üzrə 155, sürücülük üzrə 98 nəfər olmaqla, bütövlükdə, 716 nəfər müayinədən keçmişdir.

Radioloji qrup tərəfindən 16 yerdə gündəlik olaraq radioloji ölçmələr aparılmış, təbii fon şüalanması yol verilən hədd daxilində olmuşdur. Qidalanma gigiyenası laboratoriyasında 79 nümunədə 316 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 4 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 67 nümunədə 522, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 164 nümunədə 601 müayinə aparılmışdır. Əhalinin sanitariya sahəsində maarifləndirilməsi ardıcıl şəkildə aparılmış, 18 mühazirə oxunmuş, 3 seminar keçirilmiş, tibbi şurada 6 məsələ müzakirə edilmişdir.

"İstehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər"lə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində 8 iyun 2011-ci ildə keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı tikinti və inşaat obyektlərində nəzarət yoxlamaları aparılmışdır.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür.

## Naxçıvan şəhərində kitab sərgisi



"Mütaliə hər bir insanın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Belə ki, insan mütaliə etməklə öz dünyagörüşünü, biliyini, həyat təcrübəsini, mənəvi zənginliyini, nitq qabiliyyətini daha da artırmış olur. Bu mənada uşaqlara mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib məsələdir. Təcrübə göstərir ki, çox mütaliə edən uşaqların intellekti daha yüksək olur. A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının əsas məqsədi uşaqlarımızın gələcək həyatına yeni dəyərlər bəxş etmək, tez-tez dəyişən, inkişaf edən müasir dünyamızda uşaqlarımızın mütaliə qabiliyyətini və dünyagörüşünü artırmaq, onların daha savadlı, daha zəkalı böyüməlırinə töhfə verməkdir".

Bu fikirləri Naxçıvan şəhərinin "Təbriz" küçəsindəki birinci və ikinci yaşayış binalarının həyətində A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən "kitabxana günü" münasibətilə keçirilən növbəti "Oxu məni" adlı kitab sərgisində kitabxananın direktoru Kamal Axundov səsləndirib. Onun sözlərinə görə, sərgidə nümayiş etdirilən kitablardan 250-si xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə və Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş kitablar, digərləri isə Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılıq nümunələrindən ibarət əsərlərdir.

Sərgidə şəhər sakinləri və məktəblilər iştirak ediblər.

**S.MİRZƏYEVA**

*Yeni nəşrlər*

## "Tibbi terminlər lüğəti" çapdan çıxıb




Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkim-infeksionisti Süleyman Cabbarovun "Tibbi terminlər lüğəti" adlı kitabı işıq üzü görüb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Elmi-Tibbi Şurasının qərarı ilə çap olunmuş kitabın rəyçisi tibb üzrə fəlsəfə doktoru Adil Mirişlidir. Lüğətdə daha çox işlənən tibbi terminlər müxtəlif ədəbiyyatlardan seçilərək qısa izahla yazılmışdır. Tərtibat zamanı dilimizin bütün üslublarının lüğət tərkibləri nəzərdən keçirilmiş, işlənmə tezliyi nəzərə alınaraq əsas terminlər lüğətə daxil edilmişdir. Lüğətin əhatə etdiyi leksik arsenal öz əhatə dairəsinə görə izahlı tərcümə xarakteri daşıyır. Mənası geniş oxucu kütləsi üçün aydın olmayan bəzi söz və terminlərin qarşısında qısa izah və ya üslubi işarələr (izahlar kursivlə, terminlər isə mötərizədə) verilir.

175 səhifədən, 1200-ə yaxın söz və termindən ibarət lüğət təbabətin müxtəlif sahələrində işləyən şəxslər, ali və orta tibb təhsili alan tələbələr, baytarlar, bioloqlar, eləcə də təbabətlə maraqlanan digər şəxslər, bütövlükdə, hər bir səhiyyə işçisi üçün əhəmiyyət kəsb edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Yurdumuzun nemətləri*

## Tikanlı kəvər şəfa mənbəyidir

***Tikanlı kəvər kəvərkimilər fəsiləsinə aid olan çoxillik bitki növüdür. Naxçıvanda bu bitkini "çöl kəvəri", "çöl qarpızı", bəzən də "yalama" adlandırırlar. Dağlıq və dağətəyi bölgələrdə, səhra və yarımsəhra, eləcə də Kür-Araz ovalıqlarındakı geniş ərazilərdə yabanı növ halında yayılıb. Biomorfoloji xüsusiyyətlərinə görə yarımkol bitki olub, 2 metrə qədər uzunluqda budaqları vardır.***



Budaqları tikanlıdır. Yarpağı girdə-yumurtavari, yaxud ellipsvari olub, saplaqlıdır. Çiçəkləri iri, ağ rəngdədir; tək-tək halda yarpaqların qoltuğunda yerləşir. Çiçəklərində heç bir bitkidə müşahidə olunmayan spesifik xoş ətir vardır. Meyvəsi uzun saplaqlara birləşmiş halda uzunsov qutucuqlar şəklindədir. Toxumları kürəvari, tünd-qonur rənglidir, təqribən, qaraya çalır. Bitki may-iyul aylarında çiçəkləyir, meyvələri avqust ayının ikinci və bəzən üçüncü ongünlüyündə yetişir.

Çox güclü kök sistemi vardır: torpaqda oduncaqlaşmış şəkildə saxələnir. Xüsusi efirlər sintez edən kökləri daşlı, çınqıllı, gilli, gillicəli, bozqır torpaqlarda inkişaf edib artır. Hətta beton və asfalt döşəmələrdə belə, bu bitkiyə rast gəlmək mümkündür. Mil kökü 23 metr torpağın dərinliyinə qədər gedə bilir.

Bitkinin çiçəkləməsinin qönçə dövründə onda 100-150 milliqram C vitamini, 0,32 faiz rutin, 21-28 faiz azotlu maddələr, 4-5 faiz piyli maddələr olur. Toxumlarında 25-30 faiz piyli yağ vardır ki, bu da tərkib etibarı ilə 12-13 faiz doymuş yağ turşularından, 22-24 faiz olein, 33-51 faiz linol turşularının qliseridlərindən ibarətdir. Naxçıvan Muxtar Respublikası ərazisində yayılan növü ətraflı şəkildə tədqiqatçılar tərəfindən öyrənilib, istər məişətdə, istərsə də təbabətdə əhəmiyyətli xüsusiyyətləri qeyd olunub.

### Əhəmiyyəti

Kəvər meyvələrində çoxlu miqdarda yod birləşmələrinin olduğu nəzərə alınaraq, onlardan konservləşdirilmiş şirə preparatı hazırlanıb və kliniki təcrübədə onun zob xəstəliyində müalicəvi təsiri aydınlaşdırılıb.

Xalq təbabətində bir çox ağrılı xəstəliklərin müalicəsində kəvərdən peşəkarlıqla istifadə olunur.

Körpə zoğlarından qoyulan turşusu, bir çox xörəklərdə, o cümlədən piti, basdırma, bozpört, kababda ləziz və həm də müalicəvi nemət kimi istifadə olunur.

### Bunları bilmək faydalıdır

– Kəvərin yeni qönçələyən çiçəkləri saplaq və çiçək ayası üstündə olmaq şərtilə dərilir. Ondan 6-7 ədədi 5 stəkan suda dəmlənib çay şəklində qəbul edilir. Bu dəmləmə sarılıq xəstəliyinin müalicəsində əvəzolunmaz vasitədir.

– Kəvərin qurumamış (göy) gövdəsi, yarpağı və oduncaqlaşmış kökü doğranıb zəif odda qaynadılaraq cövhəri alınır. Alınan cövhər insan orqanizmində əmələ gələn qulunc-ların əridilib yox edilməsində və sinir ağrılarının aradan qaldırılmasında ən əlverişli təbii dərman vasitəsi hesab edilir. Alınan cövhər ağrıyan nahiyələrə sürtülür.

– Meyvələrinin qabığı qurudulur, sonra həvəngdəstədə döyülüb toz halına salınır. Əldə olunan materiala razyananın gövdə və yarpaqları, keşnişin toxumları və səhləb bitkisinin çiçəkləri əlavə edilərək çay şəklində dəmlənib gün ərzində 4 stəkan qəbul edilir. Bu üsul zob xəstəlikləri olan insanlara çox yaxşı təsir göstərir.

– Bitkinin çiçək ləçəkləri ehtiyatla dərilir. Üç gün kölgəli mühitdə sərilir. Əldə olunan bu materialdan 70-100 qram 12 stəkan suda dəmlənib çay şəklində istifadə olunur. Qaraciyərin funksional xəstəliklərində bu üsul ən əlverişli üsul hesab olunur və qısa müddət ərzində yüksək nəticə verir.

– Öd xəstəliklərindən əziyyət çəkən insanlara məsləhət görülür ki, gün ərzində səhər-səhər acqarına 6-8 ədəd kəvər meyvəsi yesinlər. Bir həftə müddətində şəfa tapdıqlarını hiss edəcəklər.

– Revmatizm xəstəlikləri olan insanlar üçün bitkinin kök və gövdəsinin qaynadılaraq vanna qəbul edilməsi, həmçinin yetişmiş meyvələrindən pambıq parça üzərinə yaxma edilib ayaqlara bağlanması məsləhət görülür.

**Əsgər HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

## Naxçıvan Dövlət Universiteti 2014-cü il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə qəbul elan edir

**Fəlsəfə doktoru hazırlığı üzrə**
***Büdcə hesabına doktorantura, qiyabi şöbəyə***

*Yarımkeçiricilər fizikası – 1 yer*
*Botanika – 1 yer*
*Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 2 yer*
*Təlim-tərbiyə nəzəriyyəsi və metodikası – 2 yer*
*Sami dilləri – 1 yer*

***Ödənişli əsaslarla doktorantura, qiyabi şöbəyə***

*Botanika – 1 yer*
*Sami dilləri – 1 yer*
*Təlim-tərbiyə nəzəriyyəsi və metodikası – 1 yer*

***Büdcə hesabına dissertanturaya***

*Analiz və funksional analiz – 1 yer*
*Zoologiya – 1 yer*
*Parazitologiya – 2 yer*
*Ümumi iqtisadiyyat – 1 yer*
*Dünya iqtisadiyyatı – 1 yer*
*Fiziki coğrafiya və biocoğrafiya,torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 1 yer*
*Vətən tarixi – 1 yer*
*Azərbaycan dili – 1 yer*
*German dilləri – 1 yer*
*Müqayisəli tarix və müqayisəli tipoloji dilçilik – 2 yer*
*Dünya ədəbiyyatı – 1 yer*
*Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 2 yer*

***Ödənişli əsaslarla dissertanturaya***

*Analiz və funksional analiz – 1 yer*
*Botanika – 1 yer*
*Ümumi iqtisadiyyat – 1 yer*
*Beynəlxalq hüquq və insan hüquqları – 1 yer*
*Azərbaycan dili – 1 yer*
*Təlim-tərbiyə nəzəriyyəsi və metodikası – 1 yer*
*Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 2 yer*
*Sosial fəlsəfə – 1 yer*

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul Azərbaycan Respublikası təhsil nazirinin 46-11-5043/17 saylı, 22 avqust 2014-cü il tarixli əmrinə uyğun olaraq təsdiq edilmiş plana əsasən aparılır.

Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- iş yerindən xasiyyətnamə;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

### Dissertantura yolu ilə elmlər doktoru proqramı hazırlığı üzrə

***Elmlər doktoru hazırlığı üzrə dissertanturaya büdcə hesabına***

*Analiz və funksional analiz – 1 yer*
*Ümumi iqtisadiyyat – 1 yer*
*Memarlıq nəzəriyyəsi və tarixi abidələrin bərpası və rekonstruksiyası – 1 yer*

***Dissertanturaya ödənişli əsaslarla***

*Dünya ədəbiyyatı – 1 yer*
*Ümumi iqtisadiyyat – 1 yer*

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş yerindən xasiyyətnamə;*
*- əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı;*
*- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya sənədlər 2014-cü il 15 sentyabr-15 oktyabr tarixlərdə qəbul edilir.

Qəbul imtahanları 2014-cü il 15 oktyabr -15 noyabr tarixlərində keçiriləcəkdir.

İxtisaslar üzrə ayrılmış yerlərin sayı elmi müəssisələr üzrə təsdiq olunmuş planda göstərilmişdir.

### İtmişdir

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi 75-də yerləşən, Həsənov İmran Abbas oğlunun adına özəlləşdirilmiş elektrik cihazlarının təmiri sexinə aid sənədlər itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 769